Yeni nəşrlər

# Elmi və publisistik yaradıcılığı zəngin olan professor

**Həm deyir, həm də yazırlar ki, kitab bəşəriyyətin ən böyük kəşfidir. Bu sözdə böyük həqiqət və hikmət var. Çünki kəşflərə gedən bir çox yollar özündə elmləri, bilikləri birləşdirən kitablardan başlayır. Kitablardan başlayan yollar isə heç vaxt bitib tükənmir.**




Hər dəfə yeni çapdan çıxmış kitabları vərəqləyəndə sevinc dolu qəribə hisslər keçiririk. Bu hisslər kitabı oxuyub bitirənə qədər qəlbimizi tərk etmir. Oxuduğumuz kitab zövqümüzü oxşayanda, ürəyimizə yatanda, ruhumuza sakitlik ələyəndə isə bu xoş hisslər uzun illər bizimlə yaşayır.

Bəzən haqlı olaraq insanları kitablara da bənzədirlər. Böyük rus yazıçısı Maksim Qorki yazırdı ki, insan açılmamış bir kitabdır, vərəqlədikcə yeni üzü bəlli olur. Böyük şairimiz Bəxtiyar Vahabzadə də deyirdi ki, insan göydə ay kimidir, görünməyən tərəfi var. Amma tanınmış insanlar, böyük şəxsiyyətlər haqqında yazılmış kitablarda onların həyatları bütöv və tam görünür, necə deyərlər, görünməyən tərəfi qalmır.

Bu günlərdə tanınmış şair və publisist Əli Rza Xələflinin "İti bucaq baxışı" adlı kitabı işıq üzü görüb. Kitab tanınmış ziyalı, həmişə sözünün çəkisi olan televiziya tənqidçisi, Əməkdar jurnalist, professor Qulu Məhərrəmlinin publisist və elmi yaradıcılığına həsr olunub. Müəllif tanınmış jurnalist Qulu Məhərrəmlinin publisistik və elmi yaradıcılığını onun indiyə qədər çap olunmuş kitabları əsasında təhlil edir. Eyni zamanda öz fikir və mülahizələrini də irəli sürür, oxucunun düşüncələrinə işıq salır.

Kitabını hissələrə ayıran müəllif professor Qulu Məhərrəmlinin yaradıcılığını ardıcıllıqla izləyir. Ön sözlə başlayan kitab sonra "Yazarın kimliyi - sözün görkəzmə üzü", "Zamanın pəncərələri", "Gələcəyə ön söz", "Cümhuriyyət həqiqətləri publisistik səciyyədə", "Qarabağ: yaşayan tarixin fəzaları", "Vətəndən keçən yol", "Amal və əməl savaşı: milli-mənəvi problemlər", "Ana dili problemləri", "Mətbuat, TV və jurnalistika problemləri", "Beynəlxalq problemlər - geopolitika məsələləri", "Siyasi-ədəbi portretlər" və başqa fəsillərə bölünərək oxuculara çatdırılır. Elə fəsillərin adından professor Qulu Məhərrəmlinin həm elmi, həm də publisistik yaradıcılığının necə də çoxşaxəli olduğu diqqəti cəlb edir. Əli Rza Xələfli bu fəsillərdə Qulu Məhərrəmlinin yazdığı əsərləri geniş şəkildə təhlil edərək onlara yüksək dəyər verir.

Müəllif həm elmi, həm də publisistik əsərlərini təhlilə çəkdiyi professor Qulu Məhərrəmlini oxuculara bu cümlələrlə təqdim edir: "Qulu Məhərrəmli tanınmış ziyalıdır, alimdir, sayılıb-seçilən tənqidçidir, iti qələmli publisistdir. Bu gün cəmiyyətdə gedən mənəvi proseslərin önündə dayanır. Ölkənin, dövlətin, millətin xeyrinə olan bütün ciddi dəyişikliklərin tərəfdarıdır".

Haqqında qısaca söz açdığımız kitaba ön söz yazan professor İsmayıl Kazımov da Qulu Məhərrəmlinin yaradıcılığına yüksək dəyər verərək yazır: "Müasir cəmiyyət həyatının ən aktual və gərgin problemləri Qulu Məhərrəmlinin publisistik yazılarında kütləviləşir, ictimai-siyasi gücü ilə təsir dairəsini artırır. Ən mühüm, ən vacib suallar, gündəlik və sair məsələlər Ə.Xələflinin təhlilində kombinasiya olunur... Qulunun publisistikasının güclü dil bazası var. Bu baza onun kitabdakı məqalələrində və mahir mətbuat işçisi, şair-publisist Əli Rza Xələflinin düşüncəsində mükəmməllik zirvəsinə yüksəlir".

Müəllif Əli Rza kitabda professor Qulu Məhərrəmlinin publisistik və elmi əsərlərinin, bir zamanlar televiziya kanallarında aparıcısı olduğu verilişlərin, ssenari müəllifi olduğu sənədli filmlərin siyahısını da dərc edib. Dərc olunan bu siyahıdakı kitabların çoxu dərsliklər və dərs vəsaitləridir. Bütün bunlar bir daha göstərir ki, professor Qulu Məhərrəmlinin həm elmi, həm də publisistik yaradıcılığı olduqca zəngindir. Elə professoru elmi ictimaiyyətə və cəmiyyətə sevdirən də bu zənginlik və ənginlikdir.

Professor Qulu Məhərrəmlini oxucularına yaxından tanıtmağa çalışan müəllif onun bir zamanlar jurnalistikamızın tanınmış nümayəndələri olmuş Nəsir İmanquliyevdən, Şirməmməd Hüseynovdan, Famil Mehdidən, Qulu Xəlilovdan, Tofiq Rüstəmovdan və başqa müəllimlərdən dərs aldığını qeyd edir. Bu gün professor Qulu Məhərrəmli özü də Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində dərs deyir, müəllimlik edir. Gələcək jurnalistlərə elm və bilikləri öyrədir, sabahımızın mətbuatı üçün dəyərli kadr və mütəxəssislərin hazırlanmasına çalışır.

İnanırıq ki, tanınmış jurnalist, professor Qulu Məhərrəmlinin elmi və publisistik əsərlərinin təhlilinə həsr olunmuş "İti bucaq baxışı" oxucular tərəfindən rəğbətlə qarşılanacaq, maraqla oxunacaq. Kitabda dərc olunmuş məqalə və şərhlər oxucuların dünyagörüşünün formalaşmasında mühüm rol oynayacaq.

***Z.FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 14 dekabr (№276).- S.11.